**AZƏRBAYCAN RESPUBLİKASININ**
**AUDİTORLAR PALATASI ŞURASININ**
**QƏRARI**

**Bakı şəhəri** **№353/3** **08 fevral 2023-cü il**

**“Mühasibat uçotu və auditin rəqəmsallaşdırılması üzrə metodik vəsait” və “Mühasibat uçotu və audit üzrə proqram təminatları” barədə**

“Azərbaycan Respublikasında auditor fəaliyyətinin inkişaf konsepsiyasının (2021-2030-cu illər)” 8-ci “İnnovativ auditin genişləndirilməsi” bölməsinin 3-cü “Rəqəmsal iqtisadiyyat və innovasiyların ixtisas tətbiqi sahəsində auditorların ixtisas səviyyələrinin yüksəldilməsi”, 4-cü “Auditdə innovasiyaların geniş tətbiqi hesabına auditin və əlaqəli xidmətlərin göstərilməsində texnologiyaların tətbiqi və rəqəmsal yönümlü prosedurların genişləndirilməsi”, 5-ci “Auditorların peşəkarlıq səviyyəsinin artırılması üçün yeni onlayn mexanizmlərin müəyyənləşdirilməsi” altbəndlərinin və Auditorlar Palatasının 2023-cü il üzrə iş planının 1.2.8-ci “Rəqəmsal iqtisadiyyat şəraitində auditin aparılmasına dair metodik bazanın yaradılması” bəndinin icrası məqsədilə Auditin innovativ inkişafı, operativ tənzimləmə və keyfiyyətin idarə edilməsi idarəsi (Q.Əhmədov, B.Orucov və F.Axundova) tərəfindən hazırlanmış “Mühasibat uçotu və auditin rəqəmsallaşdırılması üzrə metodik vəsait”i və “Mühasibat uçotu və audit üzrə proqram təminatları” barədə məlumatı müzakirə edərək Auditorlar Palatasının Şurası

**QƏRARA ALIR:**

1. “Mühasibat uçotu və auditin rəqəmsallaşdırılması üzrə metodik vəsait” və “Mühasibat uçotu və audit üzrə proqram təminatları” barədə məlumat bəyənilsin və tətbiq olunmaq üçün Auditorlar Palatasının üzvlərinə tövsiyə edilsin (əlavə olunur).
2. Auditin innovativ inkişafı, operativ tənzimləmə və keyfiyyətin idarə edilməsi idarəsinə (Q.Əhmədov) tapşırılsın ki, üç həftə müddətində “Mühasibat uçotu və auditin rəqəmsallaşdırılması üzrə metodik vəsait”in və “Mühasibat uçotu və audit üzrə proqram təminatları” barədə məlumatın peşə redaktəsi başa çatdırılsın.
3. Audit sistemində icra intizamı və daxili nəzarət şöbəsinə (Z.Almazov) tapşırılsın ki, peşə redaktəsi başa çatdırıldıqdan sonra üç gün müddətində “Mühasibat uçotu və auditin rəqəmsallaşdırılması üzrə metodik vəsait”in və “Mühasibat uçotu və audit üzrə proqram təminatları” barədə məlumatın auditor təşkilatlarına və sərbəst auditorlara göndərilməsi təmin edilsin.
4. Sədrin müşaviri F.Qarayevə və Auditin innovativ inkişafı, operativ tənzimləmə və keyfiyyətin idarə edilməsi idarəsinin rəisi Q.Əhmədova tapşırılsın ki, peşə redaktəsi başa çatdırıldıqdan sonra üç gün müddətində bu qərarın, metodik vəsaitin və məlumatın mətnlərinin Palatanın internet səhifəsində və “Auditorun şəxsi kabineti” sistemində yerləşdirilməsi təmin edilsin.

**Şuranın sədri** **Vahid Novruzov**